

*Mikayıl Yanar*
*AYB-nin və AJB-nin üzvü,*
*şair, publisist*

# BARMAQLARI DÜYMƏLƏRDƏN QORUYUN

***Amerika Birləşmiş Ştatlarında IV Beynəlxalq nüvə sammitində iştirak edən dövlət başçılarının nəzərinə.***

**Təhlükədir bu dünyanın çox işi,**
**Bədxahların əl-qolunu sarıyın.**
**Yaman olur atomların gərdişi,**
**Barmaqları düymələrdən qoruyun!**

**Birdən dünya paralanar, dağılar,**
**Ölüm tutar, dəhşət tutar hər yanı.**
**Bütün bəşər qan içində boğular,**
**Alov alar neçə-neçə ormanı.**

**Təyyarələr səmalarda dolanar,**
**Yerə sinər insanlar da qorxudan.**
**Bütün dünya qızıl qana boyanar,**
**Heç çoxları oyanmaz da yuxudan.**

**Yerə düşər, guruldayar bombalar,**
**Kürrəmizi bircə anda titrədər.**
**Qışa dönər gül-çiçəkli ilk bahar,**
**Raketlər də tükümüzü ürpədər.**

**Sevənlər də bir-birnə qovuşmaz,**
**Nakam qalar bu həyatda əbədi.**
**Baxışlar da bir-birinə uyuşmaz,**
**Göy unutmaz, yer unutmaz bu dərdi.**

**İnsanlığın kökü tamam kəsilər,**
**Yer üzündə bir uşaq da böyüməz.**
**Həyat özü axı əldən üzülər,**
**Bir səda da, bir soraq da böyüməz.**

**Sona çatar ömürlərin xoş günü,**
**Bircə anda yasa batar bu dünya.**
**Ömrü boyu tapa bilməz özünü,**
**Məhvərindən tamam qopar bu dünya.**

**Gecə-gündüz qan ağlayar baxışlar,**
**Heç bir yerdə üzü gülən tapılmaz.**
**Böyük-kiçik günahkarı qarğışlar,**
**Ağır dərdə kömək gələn tapılmaz.**

**Təhlükədir bu dünyanın çox işi,**
**Bədxahların əl-qolunu sarıyın.**
**Yaman olur atomların gərdişi,**
**Düymələri barmaqlardan qoruyun!..**